# MƏDİNƏ GÜLGÜNÜN POEMALARINDA LİRİK RİCƏTLƏR

**S.M.MƏRDANOVA**
***Bakı Dövlət Universiteti***
***Samira_Mardanova@rambler.ru***

*Məqalədə şairin mövzu üzrə altı poemasında («Ürəklərdə, nəğmələrdə yaşayanlar», «Apardı sellər Saranı», «Nənələr və nəvələr», «Xatirələrimin nəğməsi», «Uzaq ləpirli yollar», «Dastana çevrilmiş həyat») lirik ricətlərdən istifadə, ricətlərin xüsusiyyətləri, mətnlərə göstərdiyi lirizm qeyd olunur.*

Mədinə Gülgün Balaş Azəroğlunun ömür-gün yoldaşı, onun şair həmkarı – Azərbaycan poeziyasında özünə məxsus mövqeyi olan şairlərdən idi; cənublu-şimallı, o taylı-bu taylı Azərbaycan şeirinin görkəmli nümayəndəsi idi. Lirik şair idi, şeirləri oxunur və əzbərlənirdi, onun əsərlərinə maraq indi də qalır. Mədinə Gülgün həm də sənətkarlıqla yazılmış poemaların müəllifidir.

**«Nənələr və nəvələr»** poeması Cənubi Azərbaycana azadlığın gəlməsi, bununla əlaqədar olaraq bir kənddə torpaqların kasıb kəndlilər arasında bölünməsindən söhbət gedir. Bunu nənə görür, ancaq bizə məlumdur ki, bu proses daimi olmur; nənə yeni dünyanı görə bilmir, bunu nəvə görür və nəvə nənənin arzularını yerinə yetirir. Poemada xüsusi bir lirik ricət yoxdur, ancaq poemanın sonundakı «Epiloq» bir qədər ricət məqamındadır.

**«Xatirələrimin nəğməsi»** poeması müəllifin, bir növ, həyat düşüncələrinin ifadəsidir. Ana və oğul mükaliməsi, oğlunun suallarına ananın cavabları ananı xəyalən ata evinə, ana evinə, özünün uşaqlıq, ilk gənclik illərinə aparır. Qız ata evindən ayrılır və digər ailəyə düşür; şair mühakimə yürüdür:

Dünyada köçəri quş kimidir qız,
Uçdu, çətin dönər ata evinə.

Hekayət bu mühakimə işığında davam etdirilir. Qızından ayrı düşən, qızını görə bilməyən ata qızına məktublar yazır. Qız məktublara müraciət edir:

Ey ata yurdundan uzun yol keçib
Gələn kağızlar,
Ağlayan kağızlar,
Gülən kağızlar.
Atamın şəfqəti duyulur sizdə,
Anamın qəlbi tək nə kövrəksiniz.
Qarışıq misralar, xətlər içimdə
Göyünən, çırpınan bir ürəksiniz.

Və bu qız - Mədinə xəyalən ata yurduna səyahət edir, gəzdiyi yerlərə bir də baş çəkir. «Doğma bir təmasdan dincəlir adam», - deyə xəyalən vətən torpağını gəzir, Təbrizə gedir, Ərki ziyarət edir və düşünür:

Kaş dünya görəydi qoca Ərkimi,
Kaş dünya görəydi uca Ərkimi!
Qalanın köksündə güllə yerləri,
Yaşamaq izidir, ölmək izidir.
Deyirlər, bu qala yaranan gündən,
İgidlik, qocalıq, mərdlik rəmzidir.

Şair o azadlıq günlərini yada salır, müəllifin burada ilk olaraq Azərbaycan dilində dərsini yada salır, hər yer ona tanışdır: bu küçə, bu döngə; bu yol, bu iz; doğma yerlər; bir il azadlıqda yaşadığı gün. Şair həyəcan keçirir: «Könlümün, şeirimin ilkin oylağı», - deyir; «Üzümə yaş deyil, od axır mənim» - deyir, dilindən həsrət misraları çıxır:

Mən dözə bilmirəm, dözməyir ürək,
Sevincim yaz deyir, qəmim yaz deyir.
Səsimi bu dünya eşitsin gərək,
Bu dərdi yer, göy də saxlama deyir.
Yaz, deyir sevincim, yaz deyir qəmim,
Hanı rəngdən-rəngə çalan günlərim,
Hanı sübhün qızıl şəfəqlərindən,
Boynuna həmayıl salan günlərim!?

Qəm, kədər şairi boğur. Xəyalən dayandığı bağda Firidunun dara çəkildiyini gözünün qabağına gətirir. «Düşmən dara çəkdi vətən oğlunu» - deyə yazır. «Bunları car çəkəm dünyaya gərək» - deyir; sonra da belə həkimanə misralar yaranır:

Dərd var, özün çəkə bilərsən onu,
Dərd var, fil çəkməzdir, çəkirsən ancaq.
Dərd var, vərəqləsən bir-bir sən onu,
Köksünə bir dünya qəzəb dolacaq.

Şair görür ki, bu bağ o şənlikli bağ deyil, elə bil, hər yer yas içindədir; «Deyirlər, o gündən çiçəklər, güllər tez açır, tez solur, tez tökülürlər; Quşlar da ötməyir bu bağda şən-şən». Bu kədər ona görədir ki, «Bir Vətən balası asılmış dardan, Bir Vətən oğlunun sönmüş ulduzu». Şair yenə ricət edir:

Mahnı bir insanın ömür dastanı,
Mahnılar yaşadır bəzən insanı...

İnsanlar ölsə də, arzular ölməz,
Mahnılar ölməz.

**«Ürəklərdə, nəğmələrdə yaşayanlar»** poeması. Kimlərdir ürəklərdə, nəğmələrdə yaşayanlar? Müharibə qurbanları. Körpəsindən ayrılan və öldürülən ana, minlərlə belə ana; faşist güllləsinə tuş olan, çinar altında ölən cavan əsgər və minlərlə belələri. Cavan ana körpəsinə layla çalır, bəlkə, bu ana, anasından ayrılan həmin

körpə qızdır. Bu, şairin xatirinə gəlir:

Xatirələr pozulmaz,
Keçsə də ömrümüzdən
Neçə bahar, neçə yaz.

Çinar dastan danışır, çinara pənah gətirən o cavan əsgərin dastanını danışır; biri ölmüşsə, minləri doğulur, böyüyür. Şair deyir:

Qəhrəmanlar ölməyir,
Bilsin yaxın da, yad da.
Onlar bizimlə birgə
Yaşayırlar həyatda.
Onlar ölümləriylə
Təzədən doğuldular.
Neçə ölkənin fəxri –
Vətəndaşı oldular.
Döndülər ilk bahardan
Müjdə verən quşlara.
Onlardır çiçək səpən
Yollara, yoxuşlara.
Onlardır bizlə birgə
Gülüb sevinənlər də.
Onlardır qəlbimizdə
Heykələ dönənlər də.

Poemanın əvvəlində dörd bəndlik lirik giriş verilir, bu girişin üç bəndi poemanın sonunda təkrar edilir; ricət məqamında təkrar edilir.

Sara əfsanəsi – Sara dastanı xalq arasında geniş yayılmışdır. Neçə-neçə şairlər bu mövzuda əsərlər yaratmışlar. Maraqlıdır ki, bu əsərlərin adları da bir-birinə oxşayır. Mədinə Gülgün də **«Apardı sellər Saranı»** yazıbdır. Bu mövzuda yazılmış şeir və nəsr əsərlərində ümumi çalarlar qalsa da, məzmunlarda fərqlər var. M.Gülgün də ayrı bir süjet əsasında hekayətini qurmuşdur. Ancaq «Sara»ların hamısında olduğu kimi, burada da Sara ilə birlikdə Xan çobanı var, Arpa çayı var, Muğan var, sellər-sular var. Sara körpəlikdən anasız olmaqla, atasının yanında yaşayır.

Sara böyüyür, gözəlliyi ilə diqqəti cəlb edir, «Deyirlər ki, bir gün də o bağa enən zaman, Evinə dönən zaman Xan çoban bulaq üstə görmüşdü Saranı». Şair onların baxışlarını, danışmadan da, sevgi, məhəbbət hissi hesab edir və belə bir ricət tipli ümumiləşmə aparır:

Sevənlər dinməyəndə,
Yol tapır ürəklərə,
Özü dinir, danışır,
O müqəddəs məhəbbət.

Xan çoban adından Saraya elçi gəlir. Xan çobana eldə böyük ehtiram var, hamının dərdinə şərik olur, ney çalır, oxuyur; sürüsünü baharda dağa aparır; «Obanın qocaları Oğul deyərmiş ona», şair bu səhnədən ilham alaraq ricət edir:

Alqış belə müqəddəs,
Pak adətlərə alqış.
El üçün candan keçən,
Mərd igidlərə alqış.

Xan çoban sürüsü ilə dağlarda qalır, uzun zaman arana gələ bilmir. Saranın gözləri yol çəkir, onun yol gözləyən yanıqlı mahnıları eşidilir; bu mahnının bir bəndi belədir:

Hər yan sanki gülür üzə,
Şəfəq qonur çölə, düzə.
Nə eyləyər hicran bizə,
Əhd-peyman olan yerdə...

Nəhayət, Xan çoban dağdan enir, obaya qayıdır, onu qarşılayırlar, qış gecələri şənliklər olur, saz çalınır, ney səslənir. Bu gedişi görən şair də sözünü deyir:

Aylar aya qovuşdular,
Günlər ötən bir quşdular.
Yollar eniş, yoxuşdular,
Sazdan soruş, neydən soruş.

Yenə aldı xəyal məni,
Tərk etməsin bu hal məni.
Neçə qəlbin sevgisini
Sazdan soruş, neydən soruş...

Bu ricət şeir yeddi bənddən ibarətdir. Son bəndi belədir:

Dostun dosta vəfasını,
Bu dağların səfasını,
Xalqımın söz dünyasını
Sazdan soruş, neydən soruş.

Artıq, vaxt çatır, Xan çoban Saranı özü ilə aparmaq istəyir; Saranın atasının – Ümidin yanına gəlirlər. Ümid həyəcan keçirir, Sarasız yaşaya bilməyəcəkdir; «Təsəllini, dincliyi onda tapmışdım ancaq, Onsuz bu bağça-bağım, Evim yetim qalacaq» deyir; burada şair haşiyə çıxır:

Ovutmaq olmur, düzü,
Dolan ürəyi bəzən.

Ata razılıq verir, el adəti ilə toy olur, Sara ər evinə gedir:

Yolçular yola düşür,
Atanın da, qızın da
Gözlərindən torpağa
İkicə damla düşür.

Şair düşüncələrə qərq olur, yollara söz qoşur:

Yollar, yoxuşlu yollar,
Yollar, yarğanlı yollar,
Hərdən şəfəq geyinən,
Hərdən dumanlı yollar.

Saranı aparan insan karvanı coşub-daşan çaydan keçməli olur, sel Saranı aparır, onu qurtarmaq olmur: «Apardı sellər Saranı».

**«Uşaq ləpirli yollar»** poeması. Şair öz otağında xəyala dalır, çöldə qar yağır. Şair xəyalən xeyli əvvəllərə qayıdır. «Yadıma Ərdəbilin Qarı, yağışı düşür». «Neçə oğulun, qızın Qəmli baxışı düşür». Bu uşaqlar bir parça çörək qazanmaq məqsədilə «Dalda odun şələsi Şəhərə-Ərdəbilə Satmaq üçün gəlirlər». Şair qarlı, yağışlı yolları görür, bu yollara iz salan uşaq ayaqlarını görür və bir səhnə verir:

Uşaqların bu uşaq
Taleyinə, ömrünə
Boran düşüb, qar düşüb,
Oyuncaqlar yerinə,
Əyləncələr yerinə,
Onların qismətinə
Dolaşıq yollar düşüb.

Şair bu yollara baxıb, onlara müraciətlə ricət edir:

Yollar, möhnətli yollar,
Sirli, söhbətli yollar;
Sinəmiz qəm yazılı,
Sevinc yazılı oldu.

Yaxud:

Yollar, sehirli yollar,
Ey aylı, illi yollar.
Zaman-zaman istərəm,
Yol salım, sizdən keçim.

**«Dastana çevrilmiş həyat»** Mədinə Gülgünün həcmli poemasıdır. Burada dörd obraz var: ana – Səhəndin anası, Səhənd – İranın azad gələcəyinə çalışan inqilabçı şair. Ülkər – Səhəndin vəfalı ömür-gün yoldaşı, bir də poemanın müəllifi – şair özü – Mədinə Gülgün. Ana, oğlunu evləndirmək, gəlin gətirmək arzusu ilə yaşayır, o, bu arzusuna çatır; oğlu Səhənd də bir qədərdən sonra xeyli vaxt evdən uzaqda – mübarizə meydanlarında olur: ana da, Ülkər də onu gözləyirlər. Nəhayət, Səhənd evə qayıtmaq yolunda vurulur, zindana salınır və qətlə yetirilir. Poemanın proloqu gözəl bir şeir parçasıdır, araya düşsəydi onu lirik ricət də adlandırmaq olardı. Birinci fəsildə şairlə ananın görüşü və söhbəti verilir. Ananın halı təsvir olunur və bu haldan çıxış edən şair lirik mühakimə yürüdür.

Duyar sevinci də, qəmi də ürək,
Duyar xəyanəti, məhəbbəti də.
Bəzən insan kimi dilə gələrək,
Edər öz dostuna şikayəti də.

Ana ilk dəfə Səhəndi əsgər paltarında görür və narahat olur. Dövlət adamı olan belələrindən xoşu gəlmir. Səhənd onu sakitləşdirir; deyir ki, hansı peşəyə sahib olursansa-ol, vətəninə sədaqətli ol. Şair belə bir mənalı söz deyir:

Əfsər paltarı geyəcək,
Vicdanı satmır hər kəs.
Vətənini sevənlər
Ona dönüklük etməz.

Səhənd ananın arzusunu yerinə yetirir, ana sevinir, şair də sevinir; ancaq oğul və gəlinin evi tərk edərək Tehrana getmələri tək qalan ananı sıxır:

Elə bil ananın qəmli səsində,
Torpaq ağlayırdı, daş ağlayırdı.
Elə bil öz titrək barmaqlarıyla,
Ana bir dastanı varaqlayırdı.

Poemanın ikinci fəslində Ülkərlə şairin görüşü və mükaliməsi verilir. Səhənd mübarizə cəbhəsindədir. Ülkər həsrətlidir, fikir edir. Ülkərin həyat haqqında, ölkənin, insanların vəziyyəti haqqında düşüncələri verilir. Axı «Ehtiyacın əlində boğulur böyük-kiçik», «Çörəksiz, susuz qalıb Məmləkət başdan-başa»; saraylarda isə günləri xoş keçənlər var. Ancaq belə qalmaz.

Yox, lal axan bu sular
Gərək bir gün durulsun!
Durulsun göylərin də
Günəşsiz ətəkləri.
Tufanlar soldurmasın
Gülləri, çiçəkləri.
Açılsın torpağın da
Qan ləkəli yaxası.
Dəyişsin zəmilərin,
Tarlaların havası.

Mədinə Gülgün bu arzularla yaşadı və həmin günlərin gələcəyinə inandı. Görkəmli yazıçı (nasir, dramaturq, tənqidçi), istedadlı alim Elçin Əfəndiyev Mədinə Gülgünün «Seçilmiş əsərləri»nə yazdığı «Əbədi gün sorağında» adlı ön sözdə qeyd edir ki, şairin gələcəyə – azad gələcəyə inamının reallaşacağına inamı ümumi azadlıq yolunun qanunauyğun prosesidir: «Xalqlar azadlıq uğrunda, müstəqillik uğrunda, böyük arzular naminə mübarizələr aparır və bu zaman o şərəfli tarixin yaranmasının şahidi olan dağlar, qalalar həmin xalqların mənəvi rəmzinə çevrilir» (4, 8).

## ƏDƏBİYYAT


1. Mədinə Gülgün. Ömrün payız dayanacağı. Bakı: Yazıçı. 1983, 237 s.
2. Mədinə Gülgün. Arzu da bir ömürdür. Bakı: Gənclik, 1976. 227 s.
3. Mədinə Gülgün. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1986. 303 s.
4. Elçin. Əbədi gün sorağında. Mədinə Gülgün. «Seçilmiş əsərləri». Bakı: Azərnəşr, 1986, s. 3-8.

## ЛИРИЧЕСКИЕ ОТСТУПЛЕНИЯ В ПОЭМАХ МЕДИНЫ ГЮЛЬГЮН

С.М.МАРДАНОВА

**РЕЗЮМЕ**

В статье рассматриваются шесть поэм поэта. Это следующие поэмы: «Ürəklərdə, nəğmələrdə yaşayanlar», «Apardı sellər Saranı», «Nənələr və nəvələr», «Xatirələrimin nəğməsi», «Uzaq ləpirli yollar», «Dastana çevrilmiş həyat». Выявлены лирические отступления, использованные в текстах этих поэм, пояснены их особенности, определен лиризм, придаваемый поэмам.

## LYRICAL DEVIATIONS IN THE POEMS OF MADINAH GULGUN

S.M.MARDANOVA

**SUMMARY**

The article analyzes six poems of the poet Madinah Gulgun: «Ürəklərdə, nəğmələrdə yaşayanlar», «Apardı sellər Saranı», «Nənələr və nəvələr», «Xatirələrimin nəğməsi», «Uzaq ləpirli yollar», «Dastana çevrilmiş həyat». The lyrical deviations used in the texts of these poems, their specificities and lyrism are elucidated by the author.